# TELEFON

Nəriman Nərimanov



Seçilmiş əsərləri  Felyeton

http://www.kitablar.com
http://www.kitablar.org/

********************************************************************

* * * * * *

"Drr....  Drr....  Drr...."

"Hə, kim ola?"

""Bürühani-tərəqqi" idarəsimi?"

"Bəli, siz kim?.... "

"Arı bəy."

"Buyurunuz, nə var, nə yox?"

"Əhvalat çox, fəqət hələ bunları yazınız: cənab konsulun teatr barəsində verdiyi hesab cəmi rus, firəng, alman,  ingilis, yapon qəzetələrində çap olunacaqdır. Tainki bu millətlər dəxi zəhmət çəkib tufandan tələf olan iranlıların yetimlərinə ianə göndərməsinlər. Çünki ianə göndərib iranlıların boyunlarına bir böyük haqq  qoyacaqlar. Nə lazım düşüb, canım! Hazır özümüz, allah bərəkət versin, teatrdan lazım olan pulu götürdük. Qoy əcnəbilər bizim də qeyrətimizi, həmiyyət-himmətimizi görüb sarsaq-sarsaq söylənməsinlər,

"vəhşi müsəlman" deməsinlər. Bir iş var, yığılan ianə gərək hər şəhərə ayrı-ayrı göndərilə."

Məsələn: əlli qəpik Ərdəbilə və qeyr. Böylə olan surətdə poçta xərci barəsində məsələ hazırda ciddiyyətlə müzakirə olunur....

"Cənab Arı bəy! Bu barədə Peterburqdan nə xəbər?"

"O barədə vəkillər gələndən sonra böyük "doklad" olunacaqdır...."

Ay Moskva şəhərində bir qız sevmişəm.
Ay sarıbaş sonama dərdim demişəm.
Bağçada güllər,
Oxur bülbüllər.

"Drr.... Drr.... Drr.... "

"Canım, nə söyləyirsən, Arı bəy? Bu şikəstə oxuyan kimdir, qoymur sözlərinizi yaxşı eşidim, sözünüz yarımçıq qaldı. Söyləyiniz görüm."

"İdarəmi, ha, ha, ha, bağışlayınız, sözüm qurtardı. Ancaq kefim gəlmişdi, ona görə yavaş-yavaş zümzümə edirdim. Fikr etdim ki, eşitməzsiniz, nə bilim ki, "telefon" belə gurultu salır."

"Drr.... Drr.... Drr....

* * * * * *

"Drr.... Drr.... Drr....

"Hə, kimsən?"

""Bürühani-tərəqqi" idarəsimi?"

"Bəli, özüdür. Siz kim?...."

"Arı bəy" (Bal qurdu).

"Aha, buyurunuz."

"Təzə xəbər istəyirsinizmi?"

"Buyurunuz, baxalım."

"Deyirlər, müzəffəri məktəbində o qədər uşaq var ki, otaqlar tutmur. Əncümən yığılıb bu məsələni müzakirə edəndən sonra böylə qərar ediblər ki, bir zorba ev tutsunlar. Pul məsələsi araya gələndə qoçağım tacirlər min-min veriblər. Əhvalatdan böylə görünür ki, məclisdə olanlar böyük bir qeyrət göstəriblər. Hətta iş bir yerə çatıbdır ki, konsulxana qulluqçularından birisi gücü heç bir şeyə çatmayıb, əlli manata dəyən bir it bağışlayıbdır ki, məktəbin skamyalarını səhərdən axşamadək güdsün, taki oğrular aparmasınlar....
Və bir də qərar qoyublar ki, məktəbdə rus dili oxunsun, hazır müəllim olmamağına görə qeyrətli tacirlərdən biri müvəqqəti olaraq rus dili dərsini boynuna almış."

"Cənab Arı bəy. Təvəqqe edirik axırıncı məsələni təhqiq edəsiniz, çünki tacirlərdən hankı birisi rus dili müəllimliyini bacara bilir? Bu əhvalat səhv olacaqdır."

"Xeyr, xeyr, necə ki deyirəm, elədir. Təəccüb etməməli...."

"Cənab Arı bəy, pək əla, bunların hamısını təb edərik. Fəqət bir iş var ki, iki gün bundan müqəddəm idarəyə verdiyiniz xəbərlərlə bu xəbərlər bir-birilə düz gəlmir: əvvəl xəbər verdiniz ki, müzəffəri məktəbinin müəlliminin cibində siçanlar oynayır. İndi deyirsiniz, tacirlər böylə bir qeyrət göstəriblər. Doğrusu, bu xəbərlər təhqiq olunmasa, qəzetəmizdə yer verilməyəcəkdir."

"Drr.... Drr..... Drr...."